Məryəm Əlizadə,
sənətşünaslıq doktoru, professor

# XXI əsr dünya teatr prosesi və Azərbayçan milli teatr sənətinin çağdaş məqsəd və vəzifələri

Azərbaycan milli teatr düşüncəsini canlı proses kimi mənalandıranda onun hər hansı mərhələsini də donmuş halda deyil, məhz hərəkətdə - hər an dəyişməkdə olan fenomen kimi qəbul etmək məqsədəuyğun olar. Çünki milli sənət təfəkkürünün özü son dərəcə dinamik sahədir və burada gedən proseslər bəzən gözəgörünməz qatda formalaşaraq bu və ya digər yaradıcı sahənin materialında özünü büruzə verə bilir. Teatr sənəti isə təbiətcə açıq proses olduğundan onun təzahürləri birbaşa ictimai şüur və varlıqla bağlıdır, odur ki, teatr prosesi bu parametrlərdən kənarda araşdırılıb dəyərləndirilə bilməz.

Milli teatr prosesi bəzən görünməz, amma möhkəm əlaqələrlə Dünya teatr prosesinə bağlıdır.

"Dünya teatr prosesi" dedikdə biz bir sıra obyektiv və subyektiv səbəblərdən əsasən Qərbi Avropa mədəni məkanını düşünürük və bu məkanda gedən müxtəlif proseslərlə bağlılıqda teatr sənətinin inkişaf istiqamətlərini, yeni məzmun və forma səciyyələrini dəyərləndirməyə cəhd göstəririk.

Teatrşünaslığımız bu gün dünya teatr prosesinə ümumsovet elmi-nəzəri prizmasından deyil, məhz Azərbaycan milli teatr prosesinin tələbləri nöqteyi-nəzərindən baxmağı öyrənir. Onu da qeyd edək ki, bu nöqteyi-nəzərin formalaşmasına təkan verən obyektiv səbəblərdən biri və bəlkə də ən ilkini son illərdəki məcburi təcrid olunmağımız oldu. Bu təcrid olunmağımızın görünür ki, hardasa bizə xeyri də dəydi: necə deyərlər, su bulandı da, duruldu da və biz özümüzə, öz köklərimizə qayıdışdan sonra bu günümüzə yenidən nəzər saldıq.

İlkin və hələ tam sistemləşdirilməmiş müşahidələrimizdən səmərəli qənaətlərə gəlirik ki, bu da teatrşünaslığın konseptuallaşdırma işinə heç şəksiz ki, əsaslı xidmət edə bilər.

90-cı illərin tarixi hadisələrindən sonra gördük ki, yetmiş il ərzində doğrudan da "Sovet teatr məkanı" yaranmışdı, bu məkanın mərkəzi Moskva idi və milli teatrların inkişafı ideoloji idarəetmə ilə yanaşı bədii-estetik bəndlərlə də Rus teatrına bağlı idi. Siyasi, ideoloji, milli aspektdə kəskin gedən "ayrılma" bədii-estetik mənada yalnız üst qatdakı problemləri aradan götürdü. Müstəqil respublikalarda teatr prosesinin gedişi və sonra hamının (Baltikyanı respublikalardan başqa) yenə də vərdiş etdikləri məkanda-mərkəzi məhz Moskvada olan Teatr İttifaqlarının Beynəlxalq Konfederasiyasında birləşməsi buna gözəl dəlildir.

Bununla bərabər xeyli davam edən mədəni və informasiya blokadasında olmağımız bizi özümüzə bir qədər ayıq baxmağa məcbur etdi və teatr bilicilərilə yanaşı teatr sənətçiləri də anladılar ki, Dünya institussional mədəniyyətinin yaradıcı müəssisəsi olan teatr "ayrıca götürülmüş ölkədə" özbaşına inkişaf edib çiçəklənə bilməz.

Yenə də tarixi məcburiyyətin diqtəsiylə Moskvadan gözümüzü çəkəndə Dünya teatr məkanını daha aydın görmək qabiliyyəti qazandıq. Bunun nəticəsi kimi ilk etirafımız bu oldu: Amerika teatrı haqqında təsəvvürümüz belə yoxdur və deməli, faydalanmadan söhbət gedə bilməz. İkinci etirafımız daha ağrılı oldu: qardaş Türkiyənin teatr prosesindən xəbərimiz və bu proseslərə marağımız olsa da, o tərəfə bizlərlə daha sıx və daha ciddi əlaqələr yaratmaq maraqlı olmadı...

Qonşu İran İslam Respublikasının inqilabdan sonrakı teatr prosesinin keyfiyyət və fəaliyyət səciyyələri haqqında da, heyf ki, biliklərimiz yox dərəcəsindədir. Eyni mənzərə Yaxın Şərq teatr məkanı ilə münasibətimizdə də müşahidə olunur. Acınacaqlı olsa belə, etiraf etməliyik ki, "İslam ölkələri teatr prosesi" bizdən ötrü qapalı bir fenomendir.

Həqiqət isə budur ki, postsovet teatr prosesi axarından ayrılıb biz nə ümumtürk, nə İslam mədəni məkanına üzvi şəkildə qoşula bilməmişik.

Qaldı Avropa... İnformasiya

blokadası yarılandan sonra gördük ki, birləşməyə doğru gedən Qərbdə teatr çoxdan birləşib və artıq vahid "Avropa teatr məkanı" mövcuddur. Onun bir neçə təşkilatından daha fəalı olan Avropa Teatr Xadimlərinin İttifaqı teatr prosesinə yaradıcı rəhbərlik etməklə Avropa teatr düşüncəsinə güclü təsir göstərməkdədir. Bizi isə bu İttifaqa nə dəvət edən var, nə də ki, özümüz oraya can atmaqdayıq...

...Çağdaş Azərbaycan milli teatr prosesinin başlıca səciyyəsi sistemin dəyişməsiylə bağlı güclü yeniləşmə meylidir. Bu meyli gerçəkləşdirən yeni teatrlarımız, istedadlı rejissor və aktyorlarımız kifayət qədərdir. Teatr prosesində ciddi əngələ çevrilən və artıq dillərə düşən maddi-iqtisadi faktoru isə bir daha təsdiqləməklə yanaşı, ondan az əngəl olmayan bir ayrısını da göstərməliyik, bu da ki, teatrlarımızı üzvi inkişafdan məhrum edən məcburi, zorən düçar olduğumuz əyalətçilikdir.

Neçə illərdir ki, gerçəkliyimizin, sərt reallığın obyektiv şərtlərini nəzərə alaraq bu problemin həllini sonraya, daha əlverişli vaxta və duruma saxlamaqdayıq. Nə dövlətin, nə cəmiyyətin, nə də ki, formalaşmaqda olan kapitalın hələ ki, bu problemin həllinə gücü çatmır deməyə isə mənim dilim gəlmir. Nə qədər çətin olsa da, teatrımızı Dünya teatr prosesinə qoşmaq işini bu gün başlamalıyıq, yoxsa "əldən qalan, əlli il qalar" atalar sözü lap gerçəkləşə bilər...

Azərbaycan milli teatr prosesini canlı hərəkət kimi qavrayanda onun strateji məqsədlərini aydınlaşdırmalıyıq. Strateji səmt aydın olanda teatr düşüncəsinin milli sənət təfəkkürü və ümumi milli düşüncəmizdə yeri və əhəmiyyəti açıqlanır. Bu baxımdan teatr sənətinin artıq mədəniyyətimizin tərkib hissəsi olduğunu təsdiq edib, deyə bilərik ki, praktiki teatr bir təsisat, müəssisə kimi hər hansı təsirlərə məruz qalaraq gah böhranlı, gah uğurlu çağlarını yaşaya bilər, amma teatrın "ölümü" haqqında fəryadlar əsassız sayılmalıdır: teatr düşüncəsi milli ruhumuza hopmuş fenomendir, ruh isə ölməzdir, əbədidir.

Milli teatr sənətinin strateji istiqamətlərini düşünərkən ilk növbədə inkişafın məhz mənəvi şərtlərini düşünməliyik: tarix göstərir ki, milli ruhumuza, mənəviyyatımıza dəyən zərbələrin təsiri zəncirvari reaksiya kimi bütün başqa həyat və fəaliyyət sahələrinə sirayət edərək bizi üzvi və müstəqil inkişafımızdan sapındırır.

Bu mənada teatr prosesinin strateji məqsədini milli ruh və mənəviyyatın özünəməxsus poetikada canlı təcəssüm etməyində görməliyik. Məhz buna görə teatr düşüncəmizin poetika problemləri bu qədər əhəmiyyət kəsb edir, məhz buna görə bu problemləri taktiki, cari problemlərdən üstün tuturuq, hərçənd ki, onların dialektik bağlılığını zərrə qədər şübhə altına qoymuruq (1).

Təbii ki, hər hansı hərəkəti yalnız bizə məlum olan qanunlarla təhlil edib onun istiqamətlərini proqnozlaşdırmaq mümkündür. Atalar deyib ki, "sən saydığını say, gör fələk nə sayır" və burada böyük və səmərəli hikmət var: müəyyən iş aparanda sirli, sehrli, bizə bəlli olmayan amilləri də nəzərə almalıyıq. Odur ki, teatr poetikası problemlərini araşdırarkən bəlli metodoloji üsullara söykəndikcə gələcək haqqında qənaətlərimizi "uzaq proqnoz" - ideal olan dəyərlərlə əsaslandırmaq məcburiyyətindəyik. (2). Mülahizə və elmi qənaətlərimizin əsl meyarı hər zaman olduğu kimi həyatın özüdür: çox güman ki, gerçək inkişaf bəzi fikirlərimizi inkar, bəzilərini isə təsdiq edəcəkdir. İnstitussional mədəniyyətin faktı olan teatr sənəti inkişaf yolunda büdrəyə bilər, sənətşünas düşüncəsi yanlışlıqlara yol verə bilər, amma teatr prosesi və düşüncəsi, teatr həvəsi və tələbatı artıq milli sənət təfəkküründən ayrılmazdır, könül və can münasibətindədir, odur ki, xalqımız yaşadıqca, özünü dərk etdikcə və başqa sahələrlə yanaşı özünü sənət sahəsində təsdiqlədikcə teatr prosesi və düşüncəsi var olacaq və təzahürlərini yeni zamanın zövq və təfəkkürünə uyğunlaşdıracaq.

Deməli, proses davam edəcək, deməli, teatr sənətimiz hərəkətindən qalmayacaq.

Teatr prosesini milli sənət təfəkkürümüzün əbədi hərəkəti kimi qavramaq, teatr poetikasının səhnə təcəssümünü isə bu hərəkətin aktual təzahürü kimi dəyərləndirmək milli teatrımızın mənəvi tariximizdə yerini dəqiqləşdirməyə imkan yaradır. Bu məqsədə çatmaqdan ötrü ilk növbədə teatr prosesinin universal və özəl səciyyələrini dəqiqləşdirmək gərək olur.



Teatr prosesinin milli sənət təfəkkürünə gətirdiyi yeniliklər məhz onun universallığıyla bağlıdır. Geniş imkanlı və əhatəli yaradıcı hərəkət olduğundan teatr sənəti birbaşa milli sənət düşüncəsinə təsir göstərərək milli mədəniyyətin inkişaf potensialını və yeniləşmə meyllərini gücləndirir. Bir qayda olaraq teatrşünaslıqda və sənətşünaslıqda məsələnin bu aspekti nəzərə alınmır. Teatr sırf sənət çərçivəsində araşdırılaraq yalnız sənət hadisəsi kimi dəyərləndirilir, halbuki teatr prosesi insanın bütün fəaliyyət sahələrinə təsir etmək iqtidarına malikdir. Azərbaycan teatr prosesi təkan aldığı andan milli mənəvi tariximizi formalaşdıran amillərdən biri oldu: ta arxaik dövrlərdən teatr düşüncəsinə malik olan sənət təfəkkürü bir çox estetik kateqoriyaların əyaniləşməsinə nail oldu. İnstitussional dövründəki büdrəmələrinə baxmayaraq, teatr prosesi milli elmi düşüncəyə də güclü təsir göstərdi. XIX əsrin əvvəllərində elmi düşüncəmizdə zaman-məkan sənət növü olan teatr dəqiq və obrazlı düşüncələr arasında körpü saldı. Heç bir mübaliğəyə yol vermədən deyə bilərik ki, məhz o dövrdə püxtələşən milli intellektual elitamızın inkişaf yolları teatrdan keçib. Yalnız keçən əsrin bitəcəyində teatrın kreativ (yaradıcı) potensialı yüksəltmək imkanları layiqincə dəyərləndirildi: Avropa və Amerikada mühəndislər məxsusi "Kreativ kurslarda" teatr sənətiylə məşğul olaraq peşələrinin effektivliyini artırmağa nail olurlar...

Kütləvi sənət növlərinə aid edilmiş teatr sənətinin başlıca məqsədi haqqında müxtəlif fikirlər mövcuddur. Araşdırmamızın kontekstində, yəni teatr prosesinin universallığı baxımından isə bizdən ötrü prosesin gedişatının məğzi düşüncənin demokratikləşməsinə müsbət təsir etməsindədir. Belə ki, hələ arxaik çağlardan teatr düşüncəsi insanları birliyə, bərabərliyə və tolerantlığa (əks əqidədə və mövqedə olanlarla dinc yanaşı yaşamağa) yönəldən proseslərin tərkib hissəsi olaraq bu funksiyanı bütün mərhələlərində qorumuşdur. Yeni çağların gerçəkliyində teatrın bu missiyasına ehtiyac birə on artmışdır ki, bu da cəmiyyətin daxilən parçalanmasına qarşı effektiv əlac olaraq müəyyən mənada sosial terapiya kimi dəyərləndirilməlidir. Məhz universallığına görə teatr prosesi cəmiyyətin bütün təbəqələrinə demək olar ki, eyni təsir etmək imkanına malikdir, məsələ yalnız ondadır ki, bütün təbəqələr öz sosiopsixoloji və estetik səviyyələrinə uyğun poetika təcəssümlərindən təsirlənmək imkanına sahib olsunlar. Sosial gercəkliyə uyğunlaşmaqda misilsiz rolu olan teatr prosesi bir çox mənfi xassəli sosial proseslərin qabağını kəsərək sosial partlayışlara əngəl ola bilər. Belə qənaətə gəlirik ki, teatr prosesinin universallığını məhdudlaşdıra biləcək bir əməliyyat mövcuddur: bu prosesin üzvi axarını ideologiyalaşdırıb hər hansı siyasi doktrinaya qulluq etməyə məcbur etməkdir. Sovet dövrünün təcrübəsi bu qənaətimizi təsdiqləyir: 70-80-ci illərin teatr böhranı məhz prosesin institussional səciyyələrinin ekzistensional məqsədlərdən üstün tutulmasından qaynaqlanır. Teatr prosesinin gələcəyini proqnozlaşdıranda yeni şəraitdə onun təsir gücünün artmasını iddia edirik: keçid dövrünün çətinliklərini yaşayan teatr prosesi ictimai məkanda öz əbədi yerini tutacaqdır...

Teatr prosesinin hərəkətverici, təkanverici keyfiyyəti Avropa mədəniyyətində əsrlərdən bəri yüksək dəyərləndirilməkdədir: bu prosesin universallığı bütün başqa proseslərlə üzvi şəkildə inkişaf etməyə səmərəli şərait yaradır. Azərbaycan milli mədəniyyətində də bu məsələ elə ilk mərhələdə dürüst anlaşılmışdır, amma başqa önəmli proseslər öz vəzifələrini birbaşa teatr prosesinə "yüklədiyindən" teatr sənəti özünə xas olmayan funksiyaları daşımağa məcbur edilmişdir. Belə ki, teatrı həm məbəd, həm məktəb, həm əyləndirici müəssisə elan edərək, unudurdular ki, hər hansı cəmiyyətdə özəl qatlarda fəaliyyət göstərən məbəd, məktəb, əyləncə şəbəkələri artıq mövcuddur və teatrın onlarla rəqabətə girməyi tamam mənasız və səmərəsiz əməldir. Universal xarakterli proses olduğundan teatr sənəti yuxarıda sadaladığımız təsisatların fəaliyyətinə güclü təkan verə bilir, cünki birbaşa insanın özünə, psixikasının bütün qatlarına təsir göstərir. Belə olan halda, teatr prosesinin funksiyası yerinə yetirilmiş sayılmalıdır. Bütün başqa vəzifələri yerinə yetirən təsisatlar artıq müəyyən mənada təsirlənmiş insanlarla "iş görə" bilərlər...

Əgər teatr sənətinin indiki mərhələsində müşahidəçilər teatr prosesinin səngiməsini qeyd edirlərsə, bu yalnız və yal-

nız cəmiyyətdə baş verən bütün proseslər şəbəkəsində mənfi hal və hadisələrin təsdiqlənməsidir: teatr prosesi bu şəbəkənin, sistemin, müstəqil, amma inteqrasiya olunmuş elementidir, odur ki, sistemin bir üzvü zəifləyəndə bütövlükdə sistemin işgüzarlığı pozulur…

Bunu konstotassiya edərək, xüsusilə qeyd etməliyik ki, teatr prosesi özü-özlüyündə də mürəkkəb bir sistemdir və kifayət qədər kənar təsirlərə məruz qala bilir. Son dərəcə mütəhərrik olan bu sistemin dinamikası həm də özünəməxsus qaynaqlardan faydalanır. Tarixi inkişafda bəzi qaynaqlar təbii olaraq sıradan çıxır, gərəksiz olur, bəziləri tam yeni formada fəaliyyət göstərməyə başlayır, bəziləri isə haqsız olaraq unudulur. Məhz buna görə sənətşünaslığımızın yeni şəraitdə rolu və əhəmiyyəti artmaqdadır: obyektiv və dəqiq tədqiqatlar nəticəsində prosesimizin inkişaf qaynaqları klassifikasiya olunmalıdır, bu təsnifatlarda prosesin bütün səciyyələri dəqiq təyin olunaraq müəyyən mənada elmi təftişə yol verilməlidir. Bu işdə heç vəchlə tələsikliyə, konyukturaya, naşılığa, siyasətləşdirməyə yol verilməməlidir: bunun acı nəticələri göz qabağındadır…

Teatr prosesində yaranıb inkişaf edən teatr poetikası kulturoloji baxımdan cəmiyyətdə mövcud olan mədəni proseslərin parlaq təzahürüdür: obrazlı desək, məhz poetikanın güzgüsündə mədəniyyət öz vəziyyətini açıq-aydın görərək proseslərini korreksiya (düzəliş) etmək imkanını qazanır. Odur ki, milli teatr poetikasını təhlil edəndə unutmamalıyıq ki, bu təhlildə mədəniyyətin də durumu analiz edilməməlidir, yəni: poetika problemləri teatr çərçivəsində məhdudlaşdırılmamalıdır. Bu məsələnin fəlsəfi aspekti birbaşa mədəniyyətin bütün qatlarıyla bağlıdır, odur ki, teatr prosesində inkişaf edən poetikanın vəziyyəti də mədəniyyətin bir proses kimi canlılığından xəbər verir (3). Başqa sözlə, teatr prosesi canlı və yalnız bariz şəkildə mədəniyyətin inkişaf problemlərini obyektiv əks etdirir.

Mədəniyyət və incəsənətin elmi bazası və əsaslandırılması XX əsrdə yüksək səviyyəyə catdığından bu məsələ artıq lokal hadisə deyil: mədəniyyətin bütün aspektləri sivilizasiyanın ümumi inkişafı ilə bağlılıqda tədqiq olunur və elmi-nəzəri nəticələr həyata keçirilir. İnkişaf etmiş ölkələrin mədəni meylləri ümumi mədəni məkanın yaradılmasına yönəlib: görünür ki, yeni XXI əsr və minillikdə bu meyllər güclənəcək və tarixi proseslərin nəticəsində vahid mədəni məkanın yaxın zamanlarda yaranması artıq istisna olunmur. Bildiyimiz kimi, yeni əsr YUNESKO tərəfindən "humanitar yüzillik" elan edilib, odur ki, XXI əsrdə insanla bağlı bütün məsələlər ön plana çıxacaq.

Bu mənada Azərbaycan milli mədəniyyət və incəsənətinin tərkib hissəsi olan teatr prosesi tam yeni münasibət tələb edən humanitar fenomenlərdən biri sayılmalıdır. İlk növbədə teatr prosesi ümumi mədəniyyət kontekstində müfəssəl öyrənilməli və sistem halında qəbul edilməlidir. Təbii ki, respublikamızda yeni şəraitdə keçiriləcək mədəni quruculuq işində prioritetli sahələr mövcuddur, burada mübahisə üçün yer yoxdur: məsələ ondadır ki, prioritetlər təyin olunan anda meyarlar mexaniki və formal olmamalıdır. Məhz bundan ötrü Azərbaycanın teatrşünaslıq elmi diqqətini üstdə olan məsələlərə deyil, daxildə gedən proseslərə yönəldir. Heç şübhə yox ki, Azərbaycan milli teatr düşüncəsi və praktikasında əldə olunan nəticələr milli teatr sənəti prosesinin mədəni və mənəvi inkişafımızdan ötrü vacib amil olduğunu artıq danılmaz və obyektiv elmi həqiqət saymağa əsas verir.